Hüseynbala Mirələmov

# Çiyələkli çay qonaqlığı

(Hekayə)

Adil qəzəblə qapını çırpıb gedəndən sonra Fəridə sinədolusu nəfəs aldı. Elə bil çiyinlərindən dağdan ağır yük götürüldü. Dönüb divar saatına baxdı, uşağı baxçadan gətirmək üçün hələ xeyli vaxt vardı. Yavaş-yavaş gəlib güzgünün qabağında qoyulmuş kətildə əyləşdi, üst-başına, dağınıq saçlarına əl gəzdirdi. Qudurğanlığına görə bir az əvvəl Adilə əmməlli-başlı ibrət dərsi verliyini zənn etsə də, nədənsə çox pərişan idi. Fikir içində müxtəlif ölçülü çərçivələrdən ona gülümsəyən rəngli şəkilləri bir-bir gözdən keçirdi...

Doğma bacı kimi xətrini istədiyi sevimli rəfiqəsi Aydanla qoşa çəkdirdikləri şəkilə baxanda uşaq kimi kövrəldi. Düşünürdü, axı o cür zirək, gözüaçıq qızın qəlbini necə olub ki, Adil kimi nankorun biri ovsunlaya biib?! Aydanı tanıdığı ilk gündən ta bu günəcən həyatında olub-keçənləri bir-bir yada salmağa çalışdı. Xəyalı yaralı quş kimi uçub məktəb illərinə qondu. Elə bil hər şey dünən baş vermişdi. Hər ikisi uşaq idi.

…Orta məktəbin birinci sinifinə qədəm qoyduğu gün hamı kimi Fəridə də bərk həyəcanlıyıdı. O gün sinifdəki bütün şagirdlərin gözləri uşaq marağıyla Lətifə müəlliməyə dikilmişdi. Sinif rəhbəri əvvəlcə uşaqları bir-bir ayağa qaldırdı; adlarını, soyadlarını, ünvanlarını soruşdu, dəftərçəsinə nəsə qeyd edəndən sonra otaqda var-gəl edə-edə:

- Hə, deməli, bir nəfər gəlməyib,-dedi,- görünür, yatıb qalıb… Yaxşı qulaq asın mənə, tənbəlləri heç sevmirəm… Dərsə vaxtında gəlin!

Lətifə müəllimənin sonuncu kəlməsi ağzından çıxar-çıxmaz qapının açılması, gözlərinə eynək taxmış, üzun kirpikli, iri mavi gözlü, sarışın gur saçlı bir qızın inamlı addımlarla içəri girməsi bir oldu. Uşaqlar sözləşiblərmiş kimi birdən xorla gülüşdülər. Sinif rəhbəri əvvəl uşaqlara acıqlanaraq: - Sakit olun,-dedi, sonra mülayim səslə balaca qızdan soruşdu: - sənin adın nədi, qızım?-.

- Adım Aydandır, soyadım Məmmədli, Neftçilər prospektində yaşayırıq.

Balaca qızın cavabı Lətifə müəllimin xoşuna gəldi.

- Hə, Aydan, de görüm, sən məktəbə özün gəlmisən?
- Xeyir, müəllimə, sürücümüz gətirib.
- Bax, bir də dərsə gecikmə, yaxşımı?
- Yaxşı, - deyib Aydan dönüb nəzərlərini uşaqların üstündə gəzdirdi.

Lətifə müəllimə birinci partada əyləşmiş Fərıdəni ayağa qaldırıb mehribanlıqla:

- Qızım, sən boydan ucasan, keç arxadakı partaya, Aydan burda əyləşsin.

Arxa sıraya keçmək o an ürəyincə olmasa da sinif rəhbərinin ədalətli qərarına Fərıdə ehtiraz etmədi. Bir də bayaqdan göz qoyduğu uzun kirpikli, mavi gözlü, saçları qoşa hörüklənmiş Aydan son vaxtlara qədər Fəridənin hələ də ayrıla bilmədiyi sevimli kuklasına oxşadığına görə qəlbində bu balaca qıza doğma hiss yaranmışdı, kirimişcə dəftər-kitabını çantasına yığıb arxadakı partaya keçdi…

O gün – yeni dərs ilinin birinci böyük tənəffüsündə uşaqlar məktəbin təzəcə asfalt döşənmiş həyətinə əlvan çiçəklər kimi səpələnmişdilər. Fərəhlərindən yerə-göyə sığmayan birincilər bir-biri ilə tanış olur, özlərinə təzə dost seçirdilər. Fəridə bir qıraqda dayanıb əl-əlvan kəpənəklər kimi bir-birini qovaraq şən səsləriylə çığırışan uşaqlara qərib – qərib baxan Aydana yaxınlaşıb onu köhnə tanışı kimi dindirdi:

- Bir de görüm «A»,
Ay gözəl kukla,
Yoxsa səninlə
Oynamaram ha…

Aydanın qırışığı açıldı, o an elə bil onun da Fəridəyə qanı qaynadı. Sevincək əlini cibinə salıb: – bax, kəndir gətirmişəm, atlanmac oynayaqmı?- dedi və Fəridənin cavabını gözləmədən tələsik: - Əvvəlcə sən başla, sonra da mən…

Fəridə ilə Aydanın dostluğu o gündən başladı. Balaca rəfiqələr həmişə bir yerdə olmağa çalışırdılar. Bu, nədənsə, sinifdəki uşaqların xoşuna gəlmirdi. Fəridəyə tez-tez deyirdilər: - O cırtdanda nə görmüsən?

Sinifin dəcəl uşaqları əllərinə fürsət düşən kimi gözləri zəif gördüyünə görə eynək taxan balaca qızcığaza: «gözlüklü ilan, sarı murğuz, göygöz kosa, liluput» - deyib\ onu cırnadırdılar. Fəridənin ciddi-cəhdlə Aydanı müdafiə etməsinə baxmayaraq belə sancmalar cəmi-cümlətanı üç ay çəkdi, birinci rübün qiymətləri oxunanda hamıya məlum oldu ki, Aydan dərs əlaçısıdır. Lətifə müəllimə də haqlı olaraq onu sinif nümayəndəsi seçdi. O gündən sonra sinifdə ən dəcəllər belə Aydanla yaxın olmağa, dostluq etməyə çalışdı. Amma o buna imkan vermədi, hamıyla mehriban dolanıb-davransa da, təkcə Fəridəylə oturub-dururdu. İkinci rüb başlayanda Aydanın nazir atası məktəbin direktoruna ağız açandan sonra Lətifə müəllimə bu iki rəfiqəni qabaqda – bir partada əyləşdirdi. Aydan sinif yoldaşlarından, xüsusilə də qızlardan bir çox xüsusiyyətlərinə görə fərqlənirdi. O həmişə əyninə xarici ölkələrdə istehsal olunmuş məktəbli forması geyinir, üzü bər-bəzəkli çanta götürür, dərsə maşınla gəlir, dərsdən çıxandan sonra maşınla da evinə qayıdırdı.

Beləcə altı il ötüb keçdi… Artıq dərslər təzə istifadəyə verilmiş yaraşıqlı məktəb binasında keçirilirdi. Əlaçı olduqlarına görə Fəridəylə Aydanın xatirini çox istəyən Lətifə müəllimə də məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini olmuşdu. O gün yeddinci sinif uşaqları yay tətilindən qayıdında Aydanı ilk dəfə dikdaban tuflidə görüb heyrətləndilər, çoxları elə düşünürdü ki, o balaca boyundan utandığına görə belə ayaqqabı geyinib. Təkcə rəfiqəsi Fəridə yaxşı bilirdi ki, o, sadəcə öz zövqünə uyğun, ürəyi istədiyi kimi geyinir. Atasının kimliyni, özünün isə diribaş, çalışqan və fərasətli olduğunu biləndən sonra məktəbdə Aydana daha «gözün üstə qaşın var» deyən yox idi. Amma bir dəfə riyaziyyat dərsindən sonra bütün məktəbdə «şair» kimi tanınan Əlövsət əli təbaşir tozuna bulaşmış Aydanla üz-üzə dayanıb sinədən ona belə şeir dedi:

Məktəbli qız, əynindəki
Nə şifondur, nə gülməxmər.

Fəqət gözəl görünürsən,
Bu paltarda sən nə qədər.

Hər məsələ həll edəndə,
Tər üzündən axır dən-dən.
O dənələr qiymətlidir
Min pay soyuq mirvaridən.

Hələ elmin yollarında
Yeriyirsən, min arzun var.
Yoxuş çıxan ayaqlara
Yaraşarmı dikdabanlar?

Şeir sinifdə hamının xoşuna gəldi. Aydan da Əlövsətin şeirindən nə incidi, nə də pərt oldu. Əksinə heç kimin gözləmədiyi tərzdə qəşş eləyib güldü və dedi:
- Şair, çox gözəl yazmısan, amma bil ki, mən yoxuşu dikdaban ayaqqabılarımla deyil, ağlımla qalxacağam, məsələ-misal həll edəndə də damla-damla tər tökmürəm… Mən təkcə hesab, cəbr məsələ-misalları deyil, istəyəndə həyat məsələlərinin də öhtəsindən gəlirəm. İstəsəm lap möcüzə də göstərə bilərəm.
-Nə möcüzə canım?
- Sizin hər birinizi min illər o yana – qədim zamanlara apara bilərəm…
Bu zaman sinifdəki uşaqların səsi bir-birinə qarışdı.
- Onda məni apar!
- Yox məni apar!
Başqa biri:
- Lap ağ elədin,- dedi,- bircə sehrbazlığın qalmışdı…
Aydan xırda addımlarla yazı lövhəsinin yanına gəlib ucadan:
- İnanmırsınız? Onda kim mənimlə qədim zamanlara getmək istəyir əlini qaldırsın!- deyəndə, uşaqlar yenə «mən, mən» deyə çığırışmağa başladılar…..
Aydan hər iki əlini yuxarı qaldırıb onları sakitləşdirdi:
- Səbr edin! Mənə diqqətlə qulaq asın! Əgər hər hansı birinizi təklikdə aparsam, mənimlə həm darıxar, həm də qədimlərdən qayıdıb gələn o adamın dediklərinə heç biriniz inanmaz. Yaxşısı budur, sizin hamınızı aparım. Ancaq indi yox, şənbə günü hazırlaşın, məktəbimizin direktor müavini Lətifə xanım da bizimlə gedəcək…
Günəşli may günlərinin birində Aydan sinif yoldaşları və Lətifə xanımla birgə atasının göndərdiyi pəncərələri mavi pərdəli mikaabtobusa minib Qobustan qoruğuna yola düşdülər. Təbiətin qoynundakı nəhəng qayalar, qayaların üzərindəki qədim təsvirlər uşaqları öz cazibəsinə salmışdı. Uşaqlar yorulub əldən düşəndə, Aydan Fəridənin köməyilə onları qabaqcadan tədarük gördüyü yeməyə, mədən suyuna, şirəyə qonaq elədi. Bir müddət dincələndən sonra o üzünü Lətifə xanıma tutaraq:
- Müəllim, məsləhət bilsəydiniz öz zəmanəmizə qayıdardıq…- deynədə uşaqların yorğun səsi eşidildi.
- Qayıdaq! Qayıdaq! Öz zəmanəmizə…

…Sinif yoldaşları Aydanın qəribəliklərinə o qədər alışmışdılar ki, orta məktəbi bitirməyə hələ iki il qalmış onun dodaq boyasından, ənlik-kirşandan zövqlə istifadə etməsinə, üz gözünü bəzəməsinə zərrə qədər də təəcüblənmirdilər.

Günlərin bir günü Aydan Fəridəyə dedi:

- Valideynlərindən icazə al, gedək bizə, anam səninlə tanış olmaq istəyir.

Bu təklif Fəridənin ürəyincə oldu. Doğurdan da o Aydanı çox istəyirdi. Və bir-birilərinə bəslədikləri səmimi münasibətin əbədiliyinə canı dildən inanırdı.

Aydanın anası Zümrüd xanım onları qapının ağzında qarşıladı. Fəridənin üzündən öpdü.

- Xoş gəlmisən qızım, keç içəri! - dedi.

Aydangilin mənzili beşotaqlı idi, hündür tavanlı salon səliqə-səhmanı ilə diqqəti cəlb edirdi.

Qonaq otağında ellepisvari iri massa vardı. Masanın ətrafına arxası söykənəcəkli stullar düzülmüşdü. Küncdəki balaca masnını üstünə akvarium qoyulmuşdu, irili-xırdalı balıqlar üzə-üzə gah bir yerə yığışaraq burunlarını şüşəyə dayayır, durduqları yerdə titrəşir, gah da dağılışaraq akvariumun başqa səmtinə cumurdular. Akvariumdan bir az aralıda – qəfəsdə qısaquyruq bülbül ara vermədən atılıb-düşür, çikkildəyir, arabir yemək qabındakı çətənəni dimdikləyirdi. Divardan dalğalı dənizi əks etdirən iri, boyalı rəsm əsəri asılmışdı. Pəncərələrin önünə düzülmüş balaca çini dibçəklərdə cürbəcür çiçəklər əkilmişdi, amma içəridən nədənsə çobanyasdığının ətri gəlirdi. Bir azdan Zümrüd xanım üzünü yan otağa tutub səsləndi:

-Qöncə, uşaqların xörəyi hazırdı?

İçəridən səs gəldi:

-Bəli, Zümrüd xanım, hazırdır.

Zümrüd xanım divar saatına baxıb Aydanla Fəridəyə meriban səslə dedi:

- Keçin, yeməyinizi yeyin, sizə yaxşı düşbərə, bir də yarpaq dolması bişitdirmişəm. Sürücü burda ikən (Aydangili o, gətirmişdi) mən də gedim saçımı düzəltdirim, axşam axı, qonaq gedəcəyik…

Yeməkdən sonra Fəridə Aydandan soruşdu:

- Qönçə xala kimdir?

-O, bizim qulluqçümüzdu. İndi mənim dayəm də gələcək.

Fəridə təəccüblə qaşlarını çatdı:

-Dayən?

Aydan gülümsündü:

- Hə, mənim dayəm də var.

Fəridə rəfiqəsinin nəyə görə gülümsədiyinin fərqinə varmadan:

-Bu yaşda da adamın dayəsi olar? O nə edir ki?- soruşdu.

Aydan ciddiləşərək:

-Necə nə edir? Təlim-tərbiyəmlə məşğul olur, mənə alman və fransız dillərini öyrədir. Hələ riyaziyyat müəlliməm də var.

Fəridə Aydanın yaxşı oxumağının sirrini indi başa düşdü…

Bir azdan Aydan rəfiqəsinin dalğın görəndə:

- İsətyirsən gedək, pianoda sənə bir musiqi çalım…
- Pis olmaz, mənim musiqidən çox xoşum gəlir.

Aydan nazik, uzun barmaqlarını pianonun ağappaq şırmayı dilllərinin üstündə gəzdirdi, ifa elədiyi musiqiyə uyğun tərzdə ahəstə-ahəstə oxudu:

Tut ağacı boyunca,
Tut yemədim doyunca.
Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca…

Aydanın pianonun cansız dilləri üstündə gəzən zərif barmaqları, gözəl ifası, məlahətli səsi bircə anda Fərdəni ovsunladı, o, heyrətini gizlədə bilməyib:

-Səndə nələr varmış qız!- dedi,- Piano çalmağı hardan öyrənmisən?

Aydan başını geri ataraq uğundu:

-Hardan yox, kimdən? – deyib əllərini pianonun şırmayı dillərindən götürüb, sinəsində çarpazladı,- mənim dayəm hər şeyi bacarır. O, mənə qonağı necə qarşılamağı, necə yola salmağı da öyrədib.

Birdən Aydanın çöhrəsi dəyişdi:

-Eh Fəridə, Fəridə, heç bilirsən bu an könlümdən nə keçir?

Fəridə çiyinlərini çəkib onun gözlərinə baxdı.

-…

-İstərdim bir qardaşım olsun.

-Bəs niyə bacı yox, qardaş istəyirsən?

-Bacım var də!..

- Var? Səndən böyükdü, yoxsa kiçik?
- Təxminən bir yaşda olarıq…
- Məgər siz əkizsiniz?
- Yox aramızdı iki ay fərq var…
- Heç nə başa düşmədim…

Aydan bu dəfə lap ucadan qəhqəhə çəkib güldü:

- Ay dəli, niyə başa düşmürsən, bacım sənsən də!

Fəridə Aydanın bu sözlərindən bərk təsirləndi, məmnunluqla gülusünərək, rəfiqəsini bağrına basıb, öpdü:

- Ölənə kimi bacımsan mənim…

Elə bu vaxt qırx-qırx beş yaşlarında qaraqaş, qaragöz, bənizi süd kimi ağappaq bir qadın içəri girdi.

Aydan Fərideyə:

-Bu da mənim dayəm,- dedi.

Fəridə ayağa qalxdı.

- Əyləş, əyləş qızım... Qalxma… Mən bir-iki dəqiqəliyə gəldim…- sonra üzünü Aydana tutub,- rəfiqənə bir hədiyyə almışam, gedəndə verərsən…

O gün Aydanın dayəsi Fərideni yüngülvari sorğu-suala da tutdu: ondan ata-anasının nə işlə məşğul olduğunu, harada yaşadıqlarını, ailə üzvləri barədə bəzi şeyləri öyrəndi. Görünür, o, Aydanın kiminlə dostluq etdiyiyni bilmək istəyirdi…

Bir neçə ildən sonra məhz Aydanın o sevimli dayəsinin tövsiyyəsilə orta məktəbi bitirəndən sonra rəfiqələr sənədlərini Tibb Universietinə verdilər...

Hər ikisi də yüksək balla müalicə-proflaktika fakultəsinə qəbul oldular.

Dayə rəfiqələri qəbul olunmaları münasibəti ilə təbrik edərkən hədiyyə olaraq onlara eyni parçadan tikilmiş bahalı kostyum, həmin kostyumun rənginə uyğun dikdaban ayaqqabı, çanta aldı. Onlari eyni qiyafədə ilk dəfə görənlər bacı olduqlarını zənn edirdilər. Universitet həyatı onları daha da doğmalaşdırmışdı. Rəfiqələr orta məktəbdə olduğu kimi yenə bir partada otururdular. Çox vaxt kitabxanaya, kafeyə birgə gedir, dərsdən sonra Aydanın dalınca gələn «Mercedes» Fərideni də evlərinəcən aparırdı.

Üçüncü kursda oxuyanda birdən-birə Adil peyda oldu. Aydanın arxasınca kölgə kimi sürünən boylu-buxunlu, yaraşıqlı bu oğlanı ilk dəfə görəndə:

-Bu oğlan kimdir?-deyə Fəridə soruşdu.

-Atamın yanında işləyir. Necə bəyəm?

- Bura yaman tez-tez gəlir, ona görə soruşdum…

Aydan adəti üzrə ugunub getdi:

-Sevir də, Fəridə…

Fəridə maraqla rəfiqəsini süzdü:

- Bəs sən?

-Bilmirəm, ay bacı, çaşıb qalmışam…

- Niyə?

-Nə bilim… Tərəddüd edirəm… Deyirəm bəlkə…

- Bəlkə nə?

- Nə olacaq? Bəlkə atamın vəzifəsinə görə mənə aşiq olub… Əl çəkmir, qır-saqqız olub yapışıb yaxamdan… Özü də elə utancaqdır ki… danışanda da cəzalandırılmış tələbə kimi gözünü yerə dikir…

Fəridə istədi desin ki, ata-baba məsəli var: «suyun lal axanı, adamın yerə baxanı». Amma rəfiqəsi o an elə danışırdı ki, onun sözünü kəsməyə ürək eləmədi.

- Deyir, bircə «hə» de… mən də hələ ki, susuram…. O da ağalayır, deyir, inan mənim olmasan, özümü öldürəcəyəm.

- Ağlayır?

- Hə… özü də zülüm-zülüm… bir qoca anasından başqa heç kimi yoxdur… Yazığım da gəlir ona…

Fəridə başını mənalı-mənalı buladı:

- Eh, Aydan, Aydan, yazığın gəlirsə, demək, sevəcəksən…

Beləcə Adil düz üç il səhər-səhər universitetin həyatinə açılan darvazanın dalında inadkarlıqla, səbrlə dayanıb Aydanı gözlədi. Aydan maşından düşüb həyətə girəndə Adil utancaq simasıyla ona yaxınlaşır, universitetin qapısınacan

qızla qoşa addımlayırdı. Bəzən Aydan ayaq saxlayır, dərsə gecikməyinin fərqinə varmadan oğrun-oğrun ətrafa baxır, tələbə yoldaşlarının onlara necə maraqla tamaşa etməsindən ləzzət alırdı. Bu zaman Adil az qala həyalı qız kimi özünə yer tapmır, Aydanın ətrafa işıq saçan balaca vücudunun arxasında gizlənməyə çalışırdı. Günlərin bir günü, Adil nəhayət istədiyinə nail oldu, Aydanı qəlbən, təmənnasız sevdiyini həm qızın özünə, həm də ata-anasına inandıra bildi. Beşinci kursda olanda Aydan Adilə nişanlandı. Nişan üzüyündən başqa pal-paltara, xonçalara xərclənən pulu Aydan ata-anasından, hətta bütün sirlərini bilən qəlb sirdaşı Fəridədən də gizli olaraq Adilə verdi. Və ona: «Bunları güya özün almısan… Heç doğma anan da bilməsin!»-deyə ciddi-ciddi tapşırdı. Atasının adı dilə-dişə düşməsin deyə Aydangilin toyu hamı kimi adi şadlıq saraylarının birində keçirilirdi. Fəridə də ikinci kursdan sevdiyi Pərviz adlı oğlanla evləndilər.

Dostluq münasibətləri uzun illərin sınağından çıxmış rəfiqələrin istəklərini nəzərə alaraq Aydanın atası Fərideni də qızının çalışdığı klinikada işə düzəltdi.

…Toy günündən bir il ötməmiş Aydanın əri Adil illərdən bəri içində saxladığı əsil istəyi gizlədə bilmədi. Əvvəlcə müxtəlif eyhamlarla, sonra birbaşa mətləbə keçərək:

-Nə qədər kök atıb bir yerdə saymaq olar… Atanın bircə işarəsi bəs edər ki, vəzifəmi artırsınlar. Bizdə elə yerlər var ki… Bir də ki, qəzetlər nazirləri istefaya göndəriləcəyindən yazırlar. Dünyanın işini bilmək olmaz. Bu gün varsan, sabah yox…

Adilin birdən – birə bu tərzlə danışması Aydanın xoşuna gəlmədi. «Sən bir buna bax, mənə atamın öləcəyinə eyham vurur»-düşündü. Onların aralarındakı söhbətdən Aydanın anası Zümrüd xanım xəbər tutanda bərk əsəbləşdi, ərini nəzərdə tutaraq «Yox olsun, Nazimi istəməyənlər… Fağır bildiyimiz bu gədə lal olmuş gör nə dillər ötür… Qara qızın dərdi varmış!.. Adilin yaşında olanda atan adicə ekspeditor işləyirdi. Gecələr saat ikiyə-üçəcən yazıb-pozurdu. Bəyəm Nazimə kimsə kömək edib? Nə qazanıbsa, hamısı öz zəhmətinin, çalışqanlığının bəhrəsidir…».

Aydanın anasının hirsi soyuyandan sonra «saman altından su yeridən» kürəkəninin sözlərində azca olsa da həqiqət olduğunu anladı. Qızının, dünyaya gələcək nəvələrinin xatirinə taxıl ticarəti ilə məşğul olan kiçik müəssiyə yaratdılar. Əvvəlcə ölkənin taxılçılıq rayonları ilə müqavilələr bağlandı. Qaşqabaqlı, lal-dinməz Adil birdən-birə çevrilib qılıqlı, dilli-dilavər, güləş adama döndü. Müəssisənin rəhbəri kimi şirkətlərlə, iş adamlarıyla görüşəndə qaynatasının adından gen-bol istifadə edərək, uzun yolları kəsələmə qət edir, bağlı qapılırı asanlıqla açırdı. Müəssisənin işləri birinci ili uğurlu oldu. Kürəkəninin bacaracağını görən qayınata kiçik müəssisənin ticarət əlaqələrini genişləndirmək məqsədiylə Ukrayna, Rusiya, Qazaxıstan kimi ölkələrdən yüz tonlarla taxıl qəbul etmək barədə müqavilələr bağlanmasına yardımçı oldu. Adil köhnə «Volqa»dan düşüb, təzə «Cip»ə mindi. Həftələrlə getdiyi xarici ölkələrin beş ulduzlu otellərində qaldı. Kiçik müəssisə böyük şirkətə çevriləndən sonra şəhərin ən ucqarında yerləşən

ofisini, xaricdən gələn qonaqlara «pristijni» göstərmək üçün mərkəzə- gözəgəlimli guşələrdən birinə köçürtdü.

Fəqət işlərinin quş qanadında göylərdə getdiyi bir vaxtda Nazim müəllim kabinetində dövlət telefonundan gələn zəngə uzatmaq istədiyi əlini qəfil geri çəkdi, sanki ürəyinə iynə, ya da biz sancılmışdı, köksünü tutdu, ayaqları parket döşəməyə dirəyib ayaga qalxmaq istədi, bacarmadı, kresloya söykəndi, boynu sol çiyninə əyildi, gözləri yarıyacan açılmış mavi tül pərdəli pəncərəyə dikildi…

Atası dünyasını dəyişəndən sonra Aydan Adillə ər-arvad münasibətlərində soyuqluq hiss edirdi. Adil bəzən gecələr evə gec gəlməyinin səbəbini işinin gərginliyi ilə, qaynatasının sağlığında ona can-can deyən iş adamlarının indi saymazyana rəftarı ilə izah edirdi.

Bu azmış kimi son vaxtlar istəkli rəfiqəsi Fəridə də ondan sanki qaçırdı.

-Fəridə, axır vaxtlar gözümə kefsiz görünürsən, nəsə bir şey olub?

- Canım-gözüm, səndən gizlətməyə heç bir sirrim yoxdur. Açığı, hamının dərdi, problemi özünə yetərincədir. Ürəyinə başqa şey gəlməsin, Pərvizgilin zavaodu bağlanıb. Neçə vaxtdı işsizdi. Bekarçılığdan lap təngə gəlib. Gecələr siqareti-siqaretə calayır… Gündüzlər də iş axtarmaq adıyla evdən çıxır. Son vaxtlar içkiyə də qurşanıb. Düzdü, yeməyə çörəyimiz, geyməyə pal-partarımız var. Ancaq…

- Səndən heç gözləməzdim, bəs mənə niyə demirsən? Adilə deyərəm ona iş tapar. Lap elə öz şirkətimizdə…

Fəridənin məmnunluqla üzü güldü:

-Pərvizi o vaxt rəhmətlik atanının tapşırığı ilə işə götürmüşdülər. Düzü, atanı itirəndən sonra başın elə qarşıb ki, bunu deməyə üzüm gəlmirdi… Bir də - deyə Fəridə Aydanın qarnına işarəylə (üç aydan sonra onun uşağı olmalıyıdı, körpəsinə qoyacağı adı Adil prezidenti olduğu şirkətə vermişdi) -sənin yükünə əlavə yük, qayğı calamaq istəmmirdim…

- Düzü, Adilin dediyinə görə son vaxtlar onun da işi əvvəlki kimi rəvan getmir. Amma təmiz, etibarlı kadra ehtiyacı var. Pərviz onun üçün göydəndüşmə olacaq. Sabah onu da götür, gəl bizə.

…Ertəsi gün işdən sonra Adilin evə tez gəlməsinə Aydan çox sevindi. Qapının zəngi belə çalınanda hətta qulluqçunu qabaqlayaraq gedib qonaqları özü qarşıladı. Plaşlarını alıb asılqandan asdı. Pərvizin çəkindiyini görəndə zarafatla:

- Sıxılıb eləmə qardaş, əslində elə mən də sənin kimi qonağam, iş-güc başımı o qədər qatıb ki, evdə-eşikdə az tapılıram. Amma bizim xanımlar çox-çox qədim zamanlardan cici-bacıdırlar…

- Əslində sizi bacanaq da saymaq olar – deyə ağırayaqlı Aydan irəli yeridi.- özü də bir-ğirinə can deyib, can eşidən bacanaq…

Aydanın eyhamından bəlli olurdu ki, Adili Pərvizin işsizliyindən xəbərdar edib. Qonaqlar massa ərtafına əyləşcək evin qulluqçusu Bikə xala mətbəxtdə ynicə dəmlədiyi məxməri çayı billur armudu stəkanlara süzüb, siniyə yığdı, gilanar və qoz mürəbbəsi ilə gətirib masanın üstünə qoydu. Bu vaxt telefon zəng çaldı. Adil

cəld qalxıb geniş dəhlizdə zil qara altdığın üstündə fil sümüyündən düzəldilmiş at heykəlinin yəhərində yerləşdirilmiş qırmızı rəngli telefonun dəstəyini qaldırdı.
- Bu dəqiqə! Çağıraram...- deyib dəsətəyi qırağa qoydu, -elə həyəcanla danışır ki, elə bil Bikə xalanı yanğın söndürməyə çağırır...
Adilin sözünü hamı eşitdi...O, qonağ otağına dönəndə:
-Hə deyəsən, Bikə xala, sənin vəzifəsini özüm yerinə yetirməli olacağam-dedi.
Az sonra Bikə xala dəsətəyi yerinə qoyub başılovlu gəlib çaşqınlıq içində gah Aydana, gah da Adilə baxaraq günahgarcasına dedi:
-Nəvəm pilləkəndan yıxılıb, icazə versəydiniz mən gedərdim... Xörəklər də hazırdı... Gərək məni bağışlayasınız...
Bikə xalanın pərişanlığının fərqinə varmadan Adil:
- Narahat olma, ay arvad, dedim ki, özüm öhdəsindən gələrəm...-
Aydan onun sözünü kəçsərək həyacanla:
- Bu nə işdir, görəsən qolu-qıçı sınmayıb ki?
- Eh, ay Aydan, uşaq olmamısan. Bir az ağlayıb dayancaq də...
Aydan narazılıqla başını bulayıb:
-Bikə xala, sən Allah evə çatcaq zəng et. Bir şey lazım olsa bizə xəbər elə, nigaran qalacağam, mütləq zəng eləyərsən...
- Heç nigaran qalma, başına dönüm... - deyərək Bikə xala çıxaçıxda Adil sevinirmiş kimi əllərini həvəslə bir-birinə sürtdü:
-Bəli, əziz qonaqlar, indi Bikə xalanın missiyasını sizin üçün «Səma» şirkətinin prezidenti Adil Muradzadə zövqlə yerinə yetirəcək.- deyərək qalxıb mətbəxtə sarı getmək istədi, birdən nə düşündüsə dayandı, - deyirəm, bəlkə bizim Fəridə xanım prezidentirn köməkçisi olsun!
Gözəl geyimli-keçimli Fəridə də ayağa qalxaraq dilləndi ki:
-Yaxşısı budur, siz əyləşin, mən özüm xörəkləri gətirərəm...
-Yox canım. Axı sən qab-qacaqların yerini-yurdunu bilmirsən... Odur ki, necə deyəllər, ardımca mətbəxtə marş...
Adil bir-iki addım gedib yenə «bir saniyə...» deyib dayandı və bu dəfə ucadan aktyorsayağı dilləndi:
- Mən razı olmaram siz şit televiziya şoularına baxıb ovqatınızı korlayasınız!- kamodun siyirməsindən qoz ağacından düzəldilmiş nərtdaxtanı çıxarıb Aydanla Pərvizin qarşısına qoydu.
- Bir əla restoran qonaqlığından oynayın... – söylədi. Və Aydana sarı baxıb,- canım, məharətini göstər, bax, çalış, məni xərcə salma ha,- deyib Fəridənin ardınca mətbəxtə yollandı...
Fəridə qollarını çirmələməmiş qaz peçinin yanında dayanmışdı.
- Hə, hardan başlayaq, Fəridə xanım?- deyə Adil qazanların, balıq qızardılmış iri «Tefal» tavasının bir-bir qapağını qaldırıb baxa-baxa yalnız özünə bəlli olan qəribə sevinc və təlaş içərisində düşünürdü: «Qulluqçunun nəvəsinin məhz belə bir gündə pilləkandan yıxılması heç də təsadüfü deyil. Bu taleyin mənə verdiyi ən böyk şansdır. İnnən beləsi məni bacarıq – fərasətimdən asılıdır», sonra qəhvəyi

gözlərini qıyıb Fəridəni başdan ayağa diqqətlə süzərək soruşudu, - deyirəm, balıq qızarmasının, yeməklərin qoxusu bu gözəl, yaraşıqlı palarına höpar…- birdən həyəcandan səsinin azca da olsa titrədiyini hiss etdi. «Qadınlar nə qədər özlərini dartsalar da, özgə kişiyə təslim olmaq barədə düşünməsələr belə lap ən əfəl kişi tərəfindən sevildiklərini biləndə sevinirlər. Daxillərində yüngülləşirlər. Zahirən o kişini özlərinə yaxın burxmasalar da ürəklərində azacıq da olsa xoşbəxt anlar yaşayırlar. O ki, qaldı mənə! Məgər içkiyə qurşanıb, uçurumun kənarında dayanmış ərini fəlakətdən qurtardığıma görə Fəridə kimi gözəl, müasir bir qadın, istədiyimi mənim kimi xilaskarındanmı əsirgəyəcək?!».

-Eybi etməz, Adil müəllim, siz mənə qabların yerini göstərin…

Bu zaman Adil onun biləyindən yapışıb:- Tələsmə!-dedi və uzun koftasının qol düyməsini açaraq onu səliqə ilə qatlamağa başladı. Bu jesti elə ustalıqla etdi ki, Fəridə ona zərrə qədər də olsun etiraz etmək barədə düşünmədi. Sonra Adil səsni qısaraq, bir az da irəli getdi:

- Öz aramızdı. Sənin nə gözəl əllərin, uzun qolların var, bəs bunları niyə dustaq etmisən?-söylədi. O an Fəridə yalnız bircə addım geri çəkilməsi ilə ona etinasız olduğunu nümayiş etdirdi.

- Hə mən onu deyim ki, səndə bir az da paxıllıq varmış. Belə bir gözəlliyi insafsızcasına gizlədirsən. Adamı gözəllikdən zövq almaqdan məhrum eləmək günah deyilmi?

Fəridənin reaksiya göstərməsinə macal vermədən danışır, fürsət düşdü - düşmədi qadının əndamına toxunurdu. Fəridəyə o an elə gəldi ki, Adil içkilidir. Qonaq otağındasa nərd oyunu qızışmışdı.

Adil bic-bic Fəridəni süzüb, başının işarəsiylə:

-Səncə onların hansı udacaq?- deyə soruşdu. Amma ondan cavab gözləmədən sözünə davam edib,- Ağlıma yaxşı bir fikir gəlib, gəl mərcləşək. Oyunun proqnozunu kim düzgün söyləsə «Yaxta»da bir qonaqlıqdan.

-Məncə Pərviz udacaq… O, nərd ustasıdı. Qonşu-bacada hələ onu udan olmayıb.

- Mənsə deyirəm, Aydan udacaq. Hesab et, mən uddum,-deyərək Adil Fəridənin dirsəyəcən çırmaladığı qollarından yapışdı- bax ha, sözümüz sözdür, - Fəridə qolunu geri çəkmək istəyəndə, -bah tamam unutmuşam, bacılığının önlüyünü verim…- dedi və mətbəxt dolabından önlüyü götürüb yenə qadına yaxınlaşdı – Fəridə xanım, bunu gey, sonra işə başlayaq.

Və önlüyün aşırmasını onun boynuna keçirdi, saçlarını qaldırıb ipin üstündən saldı, -pəh-pəh, saçların da çox gözəldir…

Fəridənin mətbəx havasının istisindənmi, ya Adilin qeyri-adı hərəkətlərindənmi pörtüb yanaqları allanmışdı.

- Nə qədər gözəl olsa da, Aydanın saçına saç çatmaz. Universitetdə hamı onun saçına heyran qalmışdı.

- Amma hər gülün-çiçəyin bir-birinə bənzəməyən öz gözəlliyi, ətri var…

Önlüyün bağını arxadan düyündəyə-düyünlənə danışan Adildən aralı durmaq məqsədiylə Fəridə:

- Əziyyət çəkməyn,-dedi,- onsuz da bu önlük mənə balacadı.
Adil azacıq kənara çəkilib, Fəridəni süzdü və gülə-gülə:
-Düz sözə nə deyəsən, - dedi, - Bax, Fəridə xanım, bu önlük sənin əyninə balaca, dar gəldiyi kimi Aydanın da özü mənə, çox balaca, cılız gəlir…
Adil qeyri-adi davranışı, dediyi açıq-saçıq sözlərdən sonra qəsdən Fəridəni cavab verməyə qoymur, gözlənilməz keçidlər edir, sanki vəhşi heyvanı əhilləşdirməyə cəhd edən təcrübəli təlimçiyə bənzəyirdi…
Daxilində gərginlik keçirsə də Fəridə bir yandan Pərvizin üzünə açılmış qapını bağlanmasından, bir yandan da bütün kübar ailələrdə belə rəftarın bəlkə də adi səmimiyyətdə irəli gəldiyini düşünür, ev sahibinə ürəyinin istədiyi kimi sərt cavab verə bilmirdi.
Hər şeyə tüpürüb gedə bilməməsinin bir səbəbi də Aydanın uzun illərdən bəri ilk hamimiləyi və azad olmasının son günlərinin yaxınlaşması idi. Çıxıb getsədi Aydan hər şeyi anlaya bilərdi, bu da onun səhətinə zərbə olardı. Amma bayaqdan bəri içində yaranmış ağır gərginliyi bir fikirlə ifadə etmək istədi:
- Adil müəllim, istər orta məktəbdə, istər universitetdə Aydanı ağlına-kamalına görə hamı tanıyırdı. Onu buludlar arasından çıxan ulduza oxşadırdıq. İçində işıq saçan balaca parlaq ulduza…Hamı onu nəcib, insani duyuğularına görə sevirdi… Elə indi də onu işdə hamı sevir…
- Hə, düz bənzətmisiniz, ancaq bəzən buludlar arasından bədrlənmiş ay doğur. Onda bapbalaca ulduz görünməz olur.
«Bədrlənmiş ay doğur» kəlməsini deyərkən Adil əlini Fəridəyə sarı tuşladı. Qadının tutulduğunu görüb yenə tələsik sözünü dəyişdi:
- Ağılına ayrı şey gətirmə, göylərdən, buludlardan söz düşmüşkən… mən sənə bir həfətə qabaq gördüyüm qəribə bir yuxunu danışmaq istəyirəm. Ömrümdə bəklə belə şirin, mənalı, romantik yuxu görməmişəm… Elə yuxunu dünyanın heç bir yazıçısı, şairi, rəssamı təsvir etmək qüdrətində deyil. O yuxunu görsəm də onu sənə söyləməkdə acizlik çəkirəm…
- Onda gedək, orda danış, Aydanla Pərviz də eşitsin-….
- Bilirsən, Fəridə xanım, o romantik yuxu **ancaq** ikimizə aiddir…
- Mənim nə Aydandan, nə də ərimdən gizlədəcəyim bir sirrim yoxdur…
-Ah, ah, Fəridə xanım!- Adil yanıqlı ah çəkdi və odlu baxışlarını ani olaraq qadının belində, döşlərində, boyun-boğazında, dodaqlarında gəzdirib nəhayət gözlərirnə zillədi. Fəridə onun ehtiraslı baxışlarına tab gətirməyib gözünü ondan çəkdi. Sinini götürüb qonaq otağına getmək istəyəndə Adil onun yenə biləyindən yapışdı.
- Fəridə, bircə dəqiqə… tələsmə… Sən çox həssas, həm də ağıllı qızsan. Hər kəsin heç kimə, hətta ən doğma adamına belə deyə bilməyəcəyi sözü-sirri olur… İnsanın xisləti belədir. Sən bunu etiraf etsən də, etməsən də qəlbində mənimlə razılaşacaqsan…
Mətbəxdə çox yubandıqlarını, burdakı xoşagəlməz söhbətlərdən Aydanın, ya da ərinin duyuq düşməsindən ehtiyatlanan Fəridə, sıxıntıdan qurtarmaq üçün tez dartıb, biləyini Adilin əlindən ayırdı:

-Bura nağıl yeri deyil, gəlin öhdəmizə götürdüyümüz mətbəxt işlərini ləyaqətlə görüb qurtaraq… Bizi qonaq otağında çoxdan gözləyirlər, həm də görək oyunu kim apardı, qonaqlığı kim verəcək…
Və sinini götürüb yel kimi qonaq otağına addımladı.
Həmin gün nərddə Aydan qalib gəldi. Adil şən səslə:
-Şərtə görə qonaqlığı uduzan tərəf verməliydi. Xəbəriniz var, biz də mətbəxdə kimin qalib olacağını mərc gəlmişik. Mən də Fəridə xanımı proqnoz verməklə apardım. Heç insaf deyil qonaqlarımızın iksi də uduzub. Pərvizlə bu gündən bir komandadan olduğumuza görə onun əvəzinə qonaqlığı özüm verəcəyəm. Amma Fəridə xanım özü bizə çiyələkli çay qonaqlığı verməlidir. Özü də evlərində. Udmaqda yer, ərazi məsələsi də şərtdir axı. Oyun sizin evdə olsaydı, nəticə bambaşqa olardı…
Adil dil boğaza qoymadan elə danışırdı.
Bu günəcən ərinin evə gec gəlməsindən, gələndən sonra saatlarla ağzına su alıb susmasından, divanda uzanıb televizora baxa-baxa yatan Adilin soyuqluğunudan cana doymuş Aydan birdən-birə ərinin canlanmasına mat qalmışdı, qonaqları mehriban qarşıdamasına, şən zarafatlar edib, hamını güldürməsinə, şux oturub-durmasına, Pərvizə şirkətdə aparıcı iş verəcəyinə, ona xidməti maşın verəcəyini, o məşının birinci növbədə Fəridəni səhərlər işə aparıb, axşamlar işdən evə gətirəcəyini şirkətin prezidenti kimi bəyan etməsi hamıdan çox Aydanı sevindirdi. Həmin gün Adil Fəridəgilin Əhmədlidə olan olan evlərini satıb şəhərin mərkəzinə yaxın olan bir yerə- lap elə Təzə bazar ətrafında tikilmiş yeni binalardan birinə köçürəcəyi vədini də verdi. Bunu da güya Aydanla Fəridənin uzunmüddətli dostluğunun şərəfinə edirdi. Əslində hamının yanında söylədiyi bu bu vəd Fəridəni ələ almaq üçün həm açıq, həm də gizli ismarıc idi.
Xörəklər yeyilib, çay içiləndən sonra Fəridə daha mətbəxə getmədi. Tələsdiyindənmi, həyacanlı olduğundanmı Aydanın gödək önlüyü əynində
Qonaq otağına gəldiyindən, Adilin ikibaşlı eyhamlarından qəlbində ağırlıq hiss edirdi. Özünü nə qədər şən aparmağa çalışsa da rəfiqəsinin və ərinin gözlərinə dik baxmağa xəcalət çəkirdi. Elə bil qızmar dəmir üstündə ayaqların addımlayırdı. İndi mətbəxə getmək onunçun qarlı dağları piyada aşmaq kimi çətin gəlirdi. Odur ki, Pərvizə:- Sən də centlimentliyini gösətər, dur qab-qacağı yığışdırmaqda Adil müəllimə kömək elə! Mən də Aydanla bir az baş-başa qalım.i Adil:
- Yox-yox, Pərviz də əyləşsin, sən də, özüm apararam, -desə də Pərviz «Səma» şirkətinin prezdeninin tək çalışmasını rəva bilmədi.
O gündən sonra Adil günlərlə zəng edib bircə yol təklikdə görüşüb yuxusunu danışmaq üçün Fəridəyə dillər tökdü: «Fəridə xanım, inanın o yuxunu sizə danışmasam ölərəm…»-dedi. Görüşməyə razı olmadığını görəndə- yaxşı, heç olmasa telefonda mənə axıracan qulaq as- deyə yalvar-yaxar elədi.
- Qulaq asaram, amma bir şərtlə söz verin ki, bir də məni belə zənglərlə narahat etməyəcəksiniz, axı…
- Fəridə, insafın olsun, telefonda danışmağı da mənə çox görürsən?

- Sadəcə, Aydandan, yaxud Pərvizdən ayrı, kiminləsə hər hansı məsələ barədə danışmaq istəmirəm. Aydanla biz bacıyıq. Məni günaha batırmayın, sizdən çox xahiş edirəm… Biz ikinci kursda Pərvizlə biri-birimizə könül verəndən bu günə kim qəlbimiz çılpaq səhra kimi açıq olub…
- Sən niyə uşaq kimi düşünüb, mühakimə yürüdürsən? İkinci kursda oxuduğunuz vaxtlar tamam başqa zaman idi, başqa arzular, başqa hisslərlə yaşayırdınız. Elə mən də… İndi başqa dövrdür…
-Yaxşı, mən sənin danışacağın o nağıl-yuxuya bir şərtlə qulaq asacam. Məni bir də belə söhbətə çəkməyəcəksiniz. Sizə qulaq asmaqla bu dəqiqə nə qədər böyük günah elədiyimi bilirəm. Bunu da Aydanın xatirinə edirəm. Biz əhd etmişik ki, övladını sağ-salamat dünyaya gətirsin, ikimiz də namaz qılmağa başlayaq. İnşallah, o günə az qalıb…
- Arzuma, istəyimə çatsam, elə mən də sizə qoşulub namaz qılaram. Amma unutma ki, yuxumu dinləməkdən savayı mənə təklikdə çiyələkli çay qonaqlığı da borclusan, Fəridə xanım…
- Siz məni elə bir vəziyyətə salırsınız ki, ayrı çıxış yolu tapa bilmirəm. Danışın!…
-O anları elə bir təkrar yaşayıram … boğazım yenə qurudu, cənnət kimi bir yer idi, bəlkə də Bilgəh, Pirşağı, ya da Zuğulbaydı elə… dəniz qırağındaydıq. Mən Aydanı həmişə sakit yerə, adamların seyrək olduğu yerə aparardım, ancaq bu dəfə dənizin qırağında adam əlindən tərpənmək olmurdu. Aydan çətirin altında- kölkəlikdə şirin-şirin yuxuya getmişdi, hərdənbir yuxuda gülümsəyirdi. Bir də nə görsəm yaxşıdı…

Qızmar qumların üstündə yan-yana uzanmış adamların üstündən bir-bir adalayıb bizə yaxınlaşırsan. Mən də yermdə donub qalmışam. Bilirsən niyə? Bir yandan sənin gəlməyinə sevinirəm, bir yandan da səni o qiyafədə gördüyümə görə utanıram. Fəridə, səni and verirəm Aydanın canına, adboy vermə, məni axıracan dinlə…. Hə, sənin əynində mavi dondu, Bəlkə ona don da demək olmaz. Dizlərindən yuxarı tül paltardı. Qəribəsi də budur ki, o mavi dona bənzəyən tüldə sən lüt görünürsən. Təkcə uzun saplaqlı bağayarpağı ayıb yerini örtüb, saplağın başı pənbə göbəyinə bənd olub.

Bizim yanımıza çatanda görürəm ki, Aydanın dodağındakı təbəssüm sənin dodaqlarına da qonub. Mən çaşaraq gözlərimi sənin yupyumru döşlərindən ayıra bilmirəm. Fəridə sən Allah, diqqətlə qulaq as, bax, istəyirsən bu yuxunu Aydana da danış, etiraz etmirəm. Deməyim budur ki, mən çox qadın görmüşəm. Ancaq sənin o yumru, şux döşlərini heç kimdə görməmişdim. Bağışla məni, Fəridə bir də görürəm yuxuda dodaqlarımız, ağzımız tərpənmədən biz danışırıq, bir-birimizi başa düşürük. Ancaq mən əynindəki paltarı sənə irad tutanda, sən göyün maviliyini mənə göstərib, soruşursan ki, bax o mavilikdən o yana nə görürsən? Mən də çiyinlərimi çəkib sənə deyirəm ki, heç nə…. Sən də mənə anladırsan ki, bax, mənim əynimə geydiyim o səma rəngidir. Bu donda məni səndən başqa heç kim görmür. Sonra əlimdən tutub məni dənizə tərəf çəkirsən, adamlar suyun içində qarışqa kimi qaynaşsalar da sanki bizi görmürlər. Su boğazımıza çatanda

kürəyində mələkələrdə olduğu kimi arının şəffaf, böyük qanadlarını asta-asta çıxdığını  görürəm. Sonra göyə qalxırsan məni də dalınca aparırsan, əllərim sənin hamar qanadlarından sürüşür. Səndən aralanıb yerə düşəcəyimdən qorxuram, sən mənə anladırsan ki, sadəcə əllərində yapışım. Biz quş kimi lay-lay buludların üstünə qonuruq. Mən sən güvəndiyimdən, aşağı yıxılmaqdan daha qorxmuram. İçimdə bir yüngüllük, rahatlıq, xoşbəxtlik duyuram. Birdən Aydanı xatırlayır, onun tək-tənha qaldığında narahat oluram. Sən də bunu dərhal anladığından  buludları otlar kimi aralayıb Aydanın təbəssümlə uyduğunu mənə göstərirsən. Və mənə başa salırsan ki,  o bizim birlikdə olduğumuzu bilir və sevinir….

Fəridə xanım, təşəkkür edirəm ki, məni axıracan dinlədin. O gün bizim mətbəxtdə mənim səsim titrəyəndə, əllərim əsəndə  bax yuxumdakı o gözəl, əlçatmaz anları xatırlayırdım. Onu da bil k,  min il ötsə də, bu yuxuda yaşadıqlarım  yaddaşımldan silinib getməyəcək….

- Adil müəllim, əgər bu quraşdırma deyil, doğurdan da yuxudursa, o qız mənim simamada sizin gözünüzə görünən bir şeytanmış. Lənət olsun o şeytana!- deyib Fəridə dəstəyi yerə qoydu.

Günlərlə ardı-arası kəsilməyən telefon zəngləri, bu zənglərdən sonra ağlagəlməz təkliflər; Fəridəyə baş həkim vəzifəsi, Əhmədlidəki evlərindən şəhərin mərkəzinə köçmək, istəsə, «Prado»ya, «Cip»ə yiyələnmək, istənilən Abşeron bağlarında villayüa sahib olmaq kimi şirinikləndirici vədləri ilə Fərideni yoldan çıxara bilmədi… Amma üç gün qabaq Adilin «İstəsən Pərvizi də, Aydanı da  aradan götürtdürərəm, köçüb bundan sonra həyatımızı İstanbulda yaşayayarıq..» deməsi  Fəridə sanki yuxudan ayıldı, səsi titrəyə-titrəyə:- deyəsən ağlınızı tamam itiribsiniz… Heç bilirsiniz nə danışırsınız?

- Əgər Allah mənim  ağlımı başımdan alıbsa, səninkini ömrün boyu yatırıb. Ağlın oyaq olsa, görərsən ki, sənin də, mənim də yaşadığız taleyimiz yanlışdır.

-Bir vaxt Aydanın qarışısında necə göz yaşları tökdüyünün şahidi olmuşam. Demək, o vaxt axıtdığın göz yaşları kimi  indi mənə üyüdüb tökdüyün bu sözlər, bu vədlər də saxtadır, ötəri həvəsdir. Deyəsən, fikrimi düzgün izah edə bilmədim, yəni, dediklərinin həqiqət olduğunu bilsəm belə nə ərimə, nə Aydana, nədə özümə xəyanət edə bilmərəm…

- Axı sən niyə buna xəyanət deyirsən? Yuxumu da dinləmək istəmirdin. Məgər qulaq asandan sonqra bir şeymi itirdin?!.

- Bəli,  çox şey itirdim. O yuxu sənin uydurman olsa da, həqiqətən sənə qulaq asanacan mən  əlçatmaz buludların üstündə  təsvir elədiyin kimi rahat, yüngül və günahsız məxluqdum. Sən məni zorla günaha batırdın, sənin mənə söylədiklərini ərimə, Aydana deyə bilmədiyimə görə özümü ən ağır suçlu sayıram. Elə buna görə ağırlaşıb yerə endim, bu gün səndən daha dəhşətli söz eşidib bərk sarsıldım. Demək sən öz məqsədinə çatmaq üçün hər şeyə  qadirsən, hətta günahsız Aydana, Pərvizə də qıyarsan…

Birdən adil tutuldu. Tez özünü əla alıb:

- Yaxşı, bağışla, məni,-dedi,- söz verirəm, ağlımı başımdan eləmiş sevgimin qarşısında and içirəm, son istəyim budur ki, mənə çiyələkli çay qonaqlığı verəsən… Nəyə deyirsən and içərəm, lap Aydanın bətnindəki oğlumun məsum canına … bundan sonra səni arayıb-axtarsam namərdəm. İntihar edənlər kimi mən də sənə olan sevgimi qəlbimdə boğub öldürəcəyəm.

İstəsən, münsibətlərimiz qabaqkı kimi olacaq. Təsəvvur elə ki, sel gəldi. Hər şey apardı. Və sakit həyat yenidən öz məcrasına düşdü. Təki yarımca saat birlikdə olaq mənim, son arzum budur, vəssalam!

Adilin qır-saqqız olub əl çəkməyəcəyini bildiyindənmi, telefon zəngələrindən bezdiyinimi, özünə arxayın olub, Adilə ibrət dərsi vermək fikrəinə düşdüyndənmi – yaxşı sabah saat dörddə səni çay içəməyə dəvət edirəm…

Adil iki gün qabaq Pərvizi Ukraynaya ezamiyyətə göndərmişdi. Aydanı isə bu gün səhərdən doğum evinə aparmışdı. Günortadan sonra hədiyyə dükanlaranı gəzdi, mavi rəngli çimərlik paltarı, franzız ətiri və başqa bəzək-düzək əşyası alıb mobil telefonla Fəridəyə zəng etdi:

- Bağışla ki , on dəqiqə tez gəlmişəm, evinizin girişindəyəm, qapını açıq qoy ki, səs-küysüz içəri girim.

- Buyurun, qapı açıqdır, birbaşa mətbəxə keçin, mən başımı yuyuram, beş dəqiqəyə çıxacam.

Adil sevincək pəncələri üstə beşinci mərtəbəyə bir göz qırpımında qalxdı, ürəyində: «Deyəsən yumşalıbsan ha, çimdiyin yerdəcə qadanı alaram…»-düşündü. Ehmalca qapını açıb pişik kimi səssiz-səmirsiz hamamın qarşısından keçəndə bir an ayaq saxlayıb dinşədi. Su səsi eşidilmirdi «Yəqin qurulanır»-fikirləşdi. «Bəlkə açım baxım, yox, özümü görməmiş kimi aparmağın nə mənası…»

Darısqal mətbəxdə balaca masanın üstündə kirli qab-qabqacaq bir-birinin üstünə qalanmışdı. Hədiyyəni qaz peçinin yanında boş kətilin üstünə qoydu. Mətbəxdəki səliqəsizliyi görəndə onu təəccüb bürüdü:

- Fəridə kimi gözəl bir qadın yəni bu qədər pintidir?!

Burnunu qıcıqlandıran ağır havadan canını qurtarmaq istəyirmiş geri döndü. Bu zaman hamam otağının qapısı açıldı, Fəridə çirkli ev xalatında bayıra çıxdı, onun saçları pırtlaşıq, əlləri sabunlu idi.

- Bu nədir? Sən hələ də hazırlanmamısan ki?

Fəridə qəsdən qarnını eybəcər şəkildə irəli verib xalatının cibinə işarəylə:

- Evdə olanda qonşu gəlinlər tez-tez gəlir, biri dərman istəyir, o biri qan təziqini ölçdürür. Qonaq otağının açarlamışam, orda hər şey hazırdır, çiyələk mürəbəsi çay, səninçün yaxşı qoğal da bişirmişəm. Açarı götür, qapını aç, mən də bu dəqiqə əllərimi yuyub, saçımı fennəyəb gəlirəm…

-Mən də sənçün əla hədiyyə almışam, lap yuxuda gördüyüm o mavi don kimi…

Budur istəyirsən aç bax, -deyə Adil aldığı hədiyyəni və gül dəstəsini ona uzatdı.

-Bura qoy,-deyə Fəridə dəhlizdə stulu göstərdi, indi baxaram. Sən qapını aç keç içəri…- deyə yenə cibinə işarə elədi.

Adil əlini onun cibinə saldı. Fəridə sabunlu əliylə onun biləyindən tutub bir xeyli əlini cibində saxladı. Birdən Adil diksinib kənara sıçradı. Onun əlinə iki-üç zəli daraşmışdı…

-Bu nədir? Mənim ən çox iyrəndiyim şeydir.

Fəridə heç nə olmamış kimi təmkinlə:

-Axı zəlilər insanın xarab qanını sorurlar,-dedi,- düşündüm ki, sənin də qanın murdarlaşıb, söz yox ki, sən elə özün də zəli kimi bir şeysən, ancaq fərq ondadır ki, sən adamın təmiz, saf duyğularını sömürürsən...

-Deməк sənin çiyələkli çay qonaqlığın bu imiş… Ev-eşiyi də mənə görə yığışdırmayıbsan…

-Xeyir, çay qonaqlığım budur, bax hazırdır…- deyə qonaq otağının qapısına toxunan kimi açıldı. İçəridə doğurdan da gözəl çay dəsgahı qurulmuşdu. - …Əgər xoş niyyətlə gəlmisənsə buyura bilərsən,- bax, burada iyrənməli bir şey yoxdu.

-Sən məndə çay içməyə iştaha qoydun ki, az qala, ürəyim bulanır, bundan sonra yatanda da yuxumda bu zəliləri görəcəyəm…

- Süfrədə hər şey var, kəkotu, darçın birdə cökə gülü qarışıq əla çay dəmləmişəm. Düzü, bu ideya mənim ağlıma gözlənilmədən gəldi, bu cür qonaqlıq dünyada ikinci dəfə təkrar olunur. Birinci çay dəsgahını rəhmətlik Pəricahan nənəm – yəni atamın anası babamın bir pəzəvəng zırrama qonağı üçün düzəltmişdi. İkincisini mən-onun nəvəsi - öz iş yoldaşının namusuna göz dikmiş Adil bəy sənin üçün düzəldim… Qorxma, çaynikdə zəli-məli yoxdu…

Adil çimçəşib bir-iki addım geri çəkildi:

- Çox iyrəncsən, adam sənə baxanda qusmağı gəlir.

-İyrənə bilirsənsə, demək adamlığını tamam itirməmisən, biz həkimik, sənin xəstəliyinin yeganə dava-dərmanı budur, indisə gətirdiyin hədiyyəni, gülü-mülü də götür rədd ol burdan.

Adil bağlamanı qoyub getmək istəyəndə Fəridə ucadan:

- Əgər aparmasan dalınca atacam, hələ üstəlik balkona çıxıb sənin kim olduğunu el içində car edəcəyəm…

Adil hirslə qayıdıb dəhlizdə stolun üstünə qoyduğu bağlamanı götürüb iri addımlarla qapıya yaxınlaşdı, geriyə çevrilmədən:

-Uduzan sən oldun! - dedi.

Fəridə onun bu sözünə cavabı elə bil qabaqcadan hazırladığından dərhal dilləndi:

- Pərvizi işsiz qoymaqla mənim uduzmağımu nəzərdə tutursansa, yanılırsan. Mən sənin romantik yuxun və mənim bugünkü çiyələkli çay qonaqlığım barədə heç kimə bir kəlmə danışmayacağam. Aydana olan məhəbbətimə görə… əgər azacıq kişiliyin, qeyrətin varsa, sən də sus! Susmağın udmağındır…

Adil nə deyəcəyini bilmədi, onun qəhvəyi gözlərindən qığılcım yağırdı. Başını buladı. Beləcə dil-dodağını gəmirə-gəmirə çıxıb getdi.

…Telefonun zəngi Fəridəni xəyaldan ayırdı. Əlini qorxa-qorxa dəstəyə uzatdı.

Aydan idi. Doğum evindən zəng eləmişdi.

Fəridə sevincindən uşaq kimi ağlayırdı. Aydan ana olmuşdu…

Bakı, 2008.